İPƏK YOLU, No.2, 2024, səh.99-106
https://doi.org/10.30546/1810-911X.2024.2.012

# MAYKL MURKOK ROMANLARINDA SKANDİNAV MİFLƏRİ İLƏ ƏDƏBİ PARALELLƏR

**Coşqun Dadaşov**

Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: Dadasov94@mail.ru

**Xülasə.** Məqalədə müasir ingilis yazıçı Maykl Murkokun romanları skandinav mifləri ilə ədəbi paralellər müstəvisində öyrənilir. Yazıçının "Qılınclar cəngavəri" və "Melnibondan olan Elrik" romanları təhlil edilir, mifik dünyanın personajlar aləmi və mövzu dairəsi romanlarla bir arada araşdırılır. Roman qəhrəmanlarının təsviri ilə mifik tanrılar arasında paralellər aparılır, skandinav mifləri Maykl Murkok romanlarının ideya mənbəyi kimi təqdim edilir.

**Açar sözlər:** M. Murkok, Odin, Tor, Əbədi Döyüş, skandinav mifləri.

**LITERARY PARALLELS WITH SCANDINAVIAN MYTHS IN MICHAEL MOORCOCK'S NOVELS**

**Joshgun Dadashov**
*Azerbaijan University of Languages, Baku, Azerbaijan*

**Abstract.** The article examines the novels of modern English writer Michael Moorcock through the prism of literary parallels with Scandinavian myths. The writer's novels "The Knight of the Swords" and "Elric of Melnibone" are analyzed, along with them the world of characters and themes of the mythical world are investigated in the article. Parallels between the descriptions of the novel's characters and mythical gods are drawn; Scandinavian myths are presented as a source of the ideas of Michael Moorcock's novels.
**Keywords:** M. Moorcock, Odin, Thor, Eternal Battle, scandinavian myths.

**ЛИТЕРАТУРНЫЕ ПАРАЛЛЕЛИ СО СКАНДИНАВСКИМИ МИФАМИ В РОМАНАХ МАЙКЛА МУРКОКА**

**Джошгун Дадашов**
*Азербайджанский Университет Языков, Баку, Азербайджан*

**Резюме.** В статье рассматриваются романы современного английского писателя Майкла Муркока сквозь призму литературных параллелей со скандинавскими мифами. Анализируются романы писателя «Рыцарь Мечей» и «Элрик из Мелнибонэ», наряду с ними исследуется мир персонажей и темы мифического мира. Проводятся параллели между описаниями героев романов и мифических богов; сами же скандинавские мифы представлены в качестве источника идей романов Майкла Муркока.
**Ключевые слова:** М. Муркок, Один, Тор, Вечная Битва, скандинавские мифы

## 1. Giriş

Skandinav miflərinin fentezi janrında yazan yazıçıların ilham mənbəyi və eyni zamanda ideya qaynağı olması fikri heç kimdə şübhə doğurmur. Bu baxımdan M. Eliade, R. Bart, A. Losev, Y. Meletinskinin fikirlərinə əsaslanaraq görmək olur ki, mif varlığın genezisini açıqlayır, mif kiminsə və ya nəyinsə göstərdiyi şücaətlərin ətraflı təsviridir. Mif insan qavrayışında müəyyən bir hadisənin təsbiti, necə baş verməsi ilə bağlıdır və Y. Meletinskinin də qeyd etdiyi kimi "sinkretik mif birliyi" [8, s.26] olan mifologiya ilə sıx əlaqədədir. Başqa sözlə, əbədi davranış modellərini təsvir edən simvolun dilidir.

Yazıçının mifologiyaya müraciəti ədəbiyyatda ən çox yayılmış üsullardandır. Belə əsərlərdə yalnız mifoloji personajlar deyil, eyni zamanda mifin süjeti də iştirak edir. Nəticədə

mövzusu miflə bağlı əsərlər yaranır və bu əsərlərin özəlliyi müəllifin və mifik düşüncənin sintezi olan ideyaların daha dərin məna kəsb etməsinə yol açır. Con Ronald Ruel Tolkienin "Üzüklərin hökmdarı", Ursula Kröber Le Quinin "Qaranlığın sol əli", Nil Geymanın "Amerika tanrıları", Alan Fosterin "Düşünən krallıqlar boyunca" romanlarında mifik həyat və onun dəyərləriylə bağlı fikirlər qorunub saxlanılır, roman strukturu və obrazlar sistemi mif yaratma qanunlarına riayət edir. Bu isə mifologizmlərin yaranması və fentezinin janr xüsusiyyətləri ilə səslənir.

Skandinav mifologiyasından istifadə bəzi əsərlərdə şifrələnmiş müəllif mesajlarının daha dərindən dərkinə yol açır. Bu dərketmə ingilisdilli yazıçılar üçün xüsusi əhəmiyyət kəsb edir. Belə ki, fentezi janrında yazan ingilisdilli yazıçılar məhz bu mifoloji dünya modelini cəlbedici hesab edirlər. Çox güman ki, burada anqlo-sakson kökləri öz sözünü deyir. Qədim german tayfaları keltlərlə, sonra normanlarla qarışaraq ingilis millətinin əsasını təşkil etdi və görünür elə bu səbəbdən öz kökünə üz tutmaq iyirminci əsr yazıçısı üçün yetərli hadisədir.

Fentezi janrında yazılan romanlarda xüsusi yerdə mifoloji personaj dayanır. C.R.R. Tolkienin "Üzüklərin hökmdarı"nda Gendalfın görünüşü skandinav mifologiyasından gələn tanrı Odini xatırladır. O da Odin kimi uzun saqqallı, əynində plaş, kürən və hündürboy qocadır. C.R.R. Tolkienin romanlarında skandinav miflərindəki digər tanrıları da görmək olur. Təkbətək döyüşlər də fentezi janrında yazılan romanlarının səciyyəvi xüsusiyyətlərindəndir. Digər tərəfdən romanda yeraltı labirintlər, sonsuz pilləkənlər də qəhrəmanın həyat yolu kimi göstərirlir. Məlumdur ki, skandinav mifologiyasında bu motivlə bağlı çoxsaylı miflərə rast gəlinir. N. Geymanın "Amerika tanrıları" romanında qəhrəman keçmişdəki hadisələri təkrarlamaqla onu yenidən yazır, beləcə, öz indisini və gələcəyini dəyişir. Göründüyü kimi, skandinav miflərinə istinad, mifoloji süjet və obrazlardan istifadə müxtəlif assosiasiyaları, mədəni allüziyaları bir araya gətirir və mətnin semantikasını daha dərin edir, yazıçı təxəyyülünə geniş imkanlar açır.

Skandinav miflərinə görə nəhənglərə qarşı mübarizə kainatın mövcud olması üçün zəruri şərtdir və tanrılar buna rəhbərlik etməsə, nəhənglər həm özlərini, həm də bəşəriyyəti məhv edər. Məhz bu qarşıdurmanın qarşısını almaq üçün tanrılar və insanlar bir araya gəlir. Tanrı Odin döyüşür, dünyaları qoruyur, ölən döyüşçüləri Asqarda – tanrılar dünyasına aparır. Tanrı Tor isə "insanların qoruyucusu" adlanır. Skandinav mifologiyasına görə Qiyamət günü – Raqnarök ona görə baş verir ki, şər dünyanı bürüyür, pisliyin hakimiyyəti güclənir, şər qüvvələri sərbəst hərəkət edir, mənəvi tənəzzülün qarşısı alınmır.

Müasir ingilis yazıçı Maykl Murkokun (Michael Moorcock, 1939) müəllif konsepsiya olan silsiləvi mifik zamanı, dünyalararası savaşı, insan və kainatın mistik əlaqələrini görmək olur. Fentezi ədəbiyyatının əsasını mifə bağlayan M. Murkok Multidünya və ya Paralel Dünyalar – fərqli reallıqların sonsuz sayda mövcudluğunu, alternativ dünya konsepsiyasını irəli sürür. Bu isə skandinav mifologiyasında mövcud olan Dünya ağacı və ya çoxsaylı dünyalarla bağlı qədim miflərlə paralellik təşkil edir.

Müasir yazıçıların yaratdığı mifologizmlər, əsasən, insan varlığının dəyişməz prinsiplərinə, əbədi dəyərlərə yönəlir və bu da onu deməyə əsas verir ki, fentezi janrı miflərlə əlaqəlidir. M. Murkok da gerçək bildiyini reallıqla birləşdirir, kelt, german və skandinav mifologiyasına istinad edir, onların əsasında öz bədii dünyasını yaradır.

M. Murkokun romanlarında Nizam tanrısı dünyadakı həyat və ölümü idarə edir, lakin onunla Xaos arasındakı əbədi mübarizə bitmir. Tanrılar və sehrbazlar, ruhlar və nəhənglər dünyalararası səyahət edir, qarşıya çıxan maneələri dəf edir, insan görüntüsü alır və insanlar arasına enirlər. Hər döyüşdə, hər mübarizədə Əbədi Döyüşçü iştirak edir. O da insan kimi həssas bir varlıqdır, amma insandan fərqli olaraq dünyaları gəzə bilir, istənilən vaxt bir dünyadan digərinə keçir. Məhz o, fentezi ədəbiyyatının aparıcı qəhrəmanıdır. Belə əsərlərdə müxtəlif dünyalardan və müxtəlif zamanlardan gələn saysız-hesabsız qəhrəmanlar iştirak edir, lakin onlar hər dəfə yenidən doğulan və zamandan kənar yaşayan Əbədi Döyüşçüdə zühur edir.

Əbədi döyüşçü Nizam tanrısına qulluq edir və müxtəlif dünya qüvvələrinin savaşında xeyrin yanında olur. Əbədi Döyüşçü adi insan kimi yaşamaq istəyir, lakin ona hüzur və sakitlik qismət deyil. Elə bu səbəbdən o, ölüb-dirilir, yenidən döyüşə atılır və sonsuza qədər xeyir və şər arasında döyüşür.

## 2. Skandinav miflərinin M. Murkok romanlarında resepsiyası

Maykl Murkokun “Qılınclar cəngavəri” (The Knight of the Swords) romanında Xaos Hökmdarı döyüşdə Nizam Tanrısına qalib gəlir, onun hakimiyyətini ələ alır, özünəməxsus reallıq yaradır və Nizam Tanrısının himayə etdiyi qədim irqləri məhv edir. Şahzadə Korum öz xalqını, ailəsini, evini itirir. Qılınclar Hökmdarı və şər qüvvəsi Ariohun əmri ilə onun nəsli yer üzündən silinir, özü isə eybəcər hala salınır. Amma sol biləyinin və sağ gözünün yoxluğu ona daha böyük güc və qüvvə nəsib edir: sehrbaz ona məğlub olmuş tanrıların bədən hissələrini verir [2].

Korumun görünüşü insandan daha çox skandinav miflərindəki elflərə bənzəyir. Onun uzunsov kəllə quruluşu, lobsuz uzanan qulaqları, bəbəksiz işıq saçan gözləri var. Onu digər M. Murkok qəhrəmanlarından fərqli edən üzərində daşıdığı al-qırmızı kürküdür. Təsadüf nəticəsində sağ qalan Korum sonsuzluğa uzanan talan edilmiş torpaqlardan keçir, Xaosun güclənməsinin şahidi olur. Kəsilən əli və yanmış gözü onu mübarizə aparmaqdan çəkindirmir. Öz qalasında gizlənən və şər qüvvəsi olan Ariohla mübarizə aparan sehrbazla görüşü Korumun həyatını dəyişir. Sehrbaz ona daşları əzən, bəzən isə öz istəyi ilə hərəkət edən gümüş bilək və ruhlar üzərində gücə malik, hər tərəfi görə bilən göz verir. Korum Xaousun qalasına yola düşür, Ariohu tapıb onun ürəyini çəkib çıxarır. O, əbədi mübarizədə qalib gəlir, Xeyrin qələbəsinə yardım edir, bir çox dünyalardan keçir və Əbədi Şəhər – Nizam diyarı adlanan Tanelorna çatır. Xeyrin hökm sürdüyü bu diyarda əbədi hüzur, əmin-amanlıq və səadət yan-yana yaşayır. “Qılınclar cəngavəri”nin qısa süjet xəttini təsvir etməklə görmək olur ki, roman skandinav mifoloji dünyası ilə paralellik təşkil edir.

Skandinav mifologiyasında tanrıların yaşadığı və tanrı Odinin başçılıq etdiyi yuxarı dünya – Asqard müxtəlif aləmlərindən biridir. Mifologiyaya əsasən, bu aləmlərdə tanrıların yaşadığı Asqardla bərabər insanların da yaşadığı orta dünya – Midqard və ölülər dünyası Hel, nəhənglərin və elflərin yaşadığı dünyalar da yer alır [7]. Amma o da qeyd edilməlidir ki, skandinav mifologiyasında bu dünyalar Dünya Ağacı adı altında mövcuddurlar. Mifə görə yuxarı, orta və aşağı dünyalar Dünya Ağacında yerləşir və bu ağacda ümumilikdə doqquz dünyanın olduğu təsvir edilir.

Göründüyü kimi M. Murkokun Nizam diyarı adlandırdığı Tanelorn skandinav mifologiyasındakı Asqardı xatırladır. Tanelornda hökm sürən harmoniya ilkin insanın tanrılar aləmi haqqında təsəvvürləri ilə üst-üstə düşür. Digər tərəfdən bu aləmdə yaşayan tanrıların da xüsusiyyətləri M. Murkokun qəhrəmanlarına köçürülür. “Qılınclar cəngavəri” romanındakı şahzadə Korum yuxarı, orta və ölülər dünyasını gəzir, müxtəlif dünyalardan keçir, sonda əbədi Nizam diyarı Tanelorna gəlib çatır. Məhz bu diyarda Korumun şücaəti nəticəsində Xeyirlə Şərin mübarizəsi sona yetir. Əbədi və sonsuz əmin-amanlıq, hüzur bərqərar olur. Amma Xeyrin sonsuz qələbəsinə qədər M. Murkokun qəhrəmanı müxtəlif sınaqlardan çıxır, ona bəxş edilən sehrli qılınc və tanrılardan qopmuş hissələrin gücü ilə qələbə çalmağa nail olur. Maraqlıdır ki, yazıçı skandinav mifologiyasında zəfər, döyüş və müdriklik tanrısı Odin ilə yanaşı, fırtına-ildırım tanrısı Tor, müharibə tanrısı Tyur, tanrıların və dünya ağacının qoruyucusu tanrı Heymdallı da roman dünyasına köçürür.

Baş tanrı Odinin tək bir gözü var. O, öz taxtında oturub Asqarı və Midqarı izləyir, yeri gələndə qartala dönüb dünyaları seyr edir. Odin bir gözünü müdriklik suyunu içmək üçün fəda edir və bunun əvəzinə sonsuz bilik qazanır. Onun Draupnir üzüyü sehrli qüvvəyə malikdir, qarşısına çıxan nə varsa, parçalayan Tyurfinq qılıncı, yuxarı və orta dünyalarda çapdığı səkkiz ayaqlı Sleypnir adlı atı və başqa dünyalardan xəbər gətirən iki quzğunu var. Şahzadə Korum da tək gözlüdür. Əgər tanrı Odin gözünü müdriklik qazanmaq üçün fəda edibsə, şahzadə Korumun gözü şər qüvvələr tərəfindən çıxarılıb, amma yerinə ona hər şeyi görə bilən tanrı gözü bəxşiş edilib. Şahzadə Korumu döyüşlərdə müşayiət edən sədaqətli atı, ona inanılmaz güc verən, düşmənin başını kəsən sehrli qılıncı, başının üstündə uçan quzğunu var. Onu digər insanlardan fərqləndirən bəzi fiziki xüsusiyyətləri şikəstlik kimi qəbul edilmir, əksinə bu qüsur ona qeyri-adi, inanılmaz güc-qüvvə verir.

Şahzadə Korum digər mifik tanrı Tyurun da xüsusiyyətlərini özündə birləşdirir. Skandinav mifologiyasında tanrı Tyurun tək qolu var. Asqard tanrıları nəhəng canavar Fenriri sehrli zəncirlə bağlamağa qərar verəndə Tyur qolunu itirir. Mifə görə canavar özünü azad etmək istəyəndə Tyurun biləyini qoparır. M. Murkokun qəhrəmanı da tək qoldur. Sehrbazın ona bəxş etdiyi ilahi qüvvəyə malik qolun gücü düşmənə qarşı amansız davranışında, döyüşlərdəki şücaətində özünü göstərir.

Tanrı Odinə gəldikdə, məlumdur ki, o, başqa dünyalara səyahət edir, bu dünyalarda baş verən müharibələrdə həlak olan döyüşçüləri öz sarayına gətirir. Mifə görə onlar Raqnarök

(Qiyamət günü – C.D.) başlayanda nəhəng Fenrirlə savaşda kömək edəcəklər. Valkirlər (Odinin köməkçiləri – C.D.) döyüşçüləri qəbul edir və Qiyamət gününə qədər onlara baxırlar. Görünür elə bu səbəbdən vikinqlər müharibəyə can atır, döyüş zamanı ölümü müqəddəs hesab edirlər. Şahzadə Korum da dəfələrlə ölür, hər yeni doğuluşda yeni güc-qüvvə əldə edir və yenidən döyüşə qatılır. Əbədi Döyüşçü statusunu qazanır. Xeyrin şər üzərində qələbəsinin təminatçısına çevrilir. Digər tərəfdən Əbədi Döyüşçü-Korum da bir dünyadan digərinə keçə bilir, dünyaları səyahət edir, ölüb-dirilir və hər yeni gəlişdə yeni missiyası ilə Əbədi Döyüşü davam edir.

Korum da tanrı Heymdall kimi gecə və gündüzdən asılı olmayaraq yüzlərlə kilometr məsafəni aydın görür, yüz kilometr aralıqda bitən otların xışıltısını eşidir. Əgər tanrı Heymdall Asqardı və Midqardı nəhənglərdən, əjdaha-ilanlardan qoruyursa, şahzadə Korum da ölkəsini yadellilərdən mühafizə edir, onun uğrunda döyüşür. Tanrı Heymdall Raqnaqök başlayanda hiylə, yalan tanrısı Loki ilə döyüşdə məhv olur. Şahzadə Korum da ağıllı, mərd və qoçaq olmasına baxmayaraq ona qarşı qurulan hiylə və yalanları çözə bilmir, əmisinin hiylələrinə aldanır, sevdiyi qızı da məhz bu səbəbdən itirir.

“Melnibondan olan Elrik” (Elric of Melnibone) romanının qəhrəmanı Elrikə gəldikdə o, Melnibonun sonuncu şahzadəsidir. O, albinosdur, eyni zamanda da fiziki zəifdir və sağlamlığını qorumaq üçün bitkilərdən hazırlanmış dərman qəbul edir. Dərmanı isə sehrbaz olduğuna görə əldə edir. Elrik otların, çiçəklərin, ağacların dilini bilir, onlarla sehrin, tilsimin köməyi ilə danışır. Onun bu xüsusiyyəti otların, bitkilərin dilini bilən tanrı Heymdallı xatırladır. Bu baxımdan o, tanrı Heymdallın xüsusiyyətlərini daşıyır. Fərəh Cəlil yazır ki, “Heymdall adlı tanrıya Ağ As deyirlər. O, böyük və müqəddəsdir. Bəzən isə onu Halqa buynuz və ya Qızıldiş adlandırırlar. Onun dişləri qızıldandır. Halqa Buynuzun atı Qızıl çelka adlanır. Bu as Biverst körpüsündə, Himinberq adlı yerdə yaşayır. O, tanrıların qoruyucusudur və göyün kənarlarının keşiyini çəkir ki, oraya nəhənglər hücum etməsin. Heymdall quşdan da az yatır. Gecə və gündüz o, yüzlərcə ərazini görür” [1, s.17].

Şahzadə Elrik insanların yaşadığı və dayanmadan böyüyən qonşu ölkələrin varlığından narahatdır. Onun krallığının əhalisi qonşu ölkənin sakinlərini sevmir, əmisi oğlu Yirkun isə ölkədə hökm sürən abu-havanı əsas gətirərək qonşuları yer üzündən silmək, onların torpaqlarını öz ərazilərinə qatmaq niyyətindədir. Bunun üçün daima tərəddüd edən və müharibə istəməyən şahzadə Elriki öldürüb, taxtı ələ keçirməyi planlayır [3].

Şahzadə Elrikin sehrli Aktorius üzüyü ona çətin anlarında yardım edir. Belə ki, Aktorius Xaos hökmdarı, Cəhənnəm hersoqu Ariohun himayəsi altındadır və ondan güc alır. Skandinav mifologiyasında sehrli üzük Draupnir hər şeyə qadirdir və tanrı Odinə iki sehrbaz cırtdan tərəfindən bəxş edilir. Mifə görə hər doqquzuncu gecə üzüyün sahibinə daha səkkiz eynisi gətirilir və bundan sonra o, toxunulmaz olur. Elrik də Aktoriusa malikdir. Bu üzük həm kral gücünün simvolu, həm də magik qüvvə, dünyalararası qapıların açarı, başqa dünyalara gedən yolun bələdçisidir.

Müxtəlif fövqəl qüvvələrlə sazişə girən şahzadə Elrikin ən dəyərli və amma eyni zamanda da dərdlərinin səbəbkarı olan Stormbringer (Fırtınaçı – C.D.) qılıncı var. Qılınc Elrikə

sonsuz döyüşçü gücü, sağlamlıq və bacarıq verir, amma əvəzində ölənlərin ruhu bu qılınca hopur. Roman Elrikin sehrli qılıncı ilə döyüşləri və ondan asılı olmayan ən yaxınlarının ölümündən bəhs edir.

Qırmızı gözlü, albinos Elrik sehrbazdır, magik qüvvələrdən istifadə edir. Digər tərəfdən roman boyu onu Əjdahalar kralı da adlandırırlar. Melnibon krallığı əjdahaların sığınacaq yeri, onların yerli sakinlərlə görüş məkanıdır. Elrik əmisi qızı Simorillə evlənmək niyyətindədir. Bu motiv mifik süjetlərdən gəlir və məlumdur ki, mifə görə damarlarında əjdaha qanı axan insan üçün qohum evlilik adi haldır. Skandinav mifologiyasının bir çox qəhrəmanları nəhənglərlə izdivacdan törəmiş, müəyyən yerlərdə hətta onların hamisi kimi də çıxış edirlər. Odinin nəhəng Yorddan doğulan ildırım, fırtına və yağış, bərəkət tanrısı Toru, hiyləgər Lokkinin nəhənglərdən doğulan oğullarını, əsasən də canavar Fenriri xatırlamaq kifayətdir ki, Melnibondakı dünyanı təsəvvür etmək olsun. Melnibon əjdahaların sığınacaq yeri olduğu kimi yerli sakinlərin də onlarla əlaqəsinin göstəricisidir.

Lakin Elrikin əmisi oğlu Yirkun hakimiyyəti ələ keçirmək üçün bütün yollara əl atır, hətta bacısı Simorilin Elriki sevdiyini bilsə də onunla evlənib krallığı əlində saxlamaq niyyətindədir.

Melnibon əhalisi əsirlərlə bu ərazilərdə yaşasalar da əmi oğlanları arasında yaranan ölüm-dirim savaşında məhv olur və ölkə xarabalığa çevrilir. Qədim irqin son döyüşü skandinav mifologiyasındakı Raqnarökun baş verdiyi səhnəni xatırladır. Qiyamət gününü xatırladan bu döyüşdən yalnız sehrli gücə, magik qüvvəyə sahib Elrik sağ çıxır. Ağ bənizi və ağ saçları, qırmızı gözləri onu Cəhənnəmdən qurtulub gələn sonuncu canlıya bənzədir. Şərin hamisi, Cəhənnəm hersoqu Arioh ona kömək edir, lakin müqabilində ona xidmət etməsini istəyir. Arioh ona Qara qılınc – Stormbringer verir. Qara qılınc Elrikin ruhuna hakim kəsilir, onu öldürməyə məcbur edir. Tədricən Elrik əvvəl qılıncın qulu, sonra isə Ariohun nökərinə çevrilir ("Stormbringer" romanı).

Elrik obrazı skandinav mifik tanrısı Torla, onun mifdəki roluna çox yaxındır. Torun günəşə bənzər ağappaq saçları, bəyaz çöhrəsi var. Yuxarı dünya – Asqardın qoruyucusu kimi daima macəralarla qarşılaşır və hər dəfə də silahın köməyi ilə onu dəf edir. Elrikin Qara qılıncının gücü Torun silahının gücünə bərabərdir. Skandinav mifik tanrısı Tor Asqardın qoruyucusu, eyni zamanda da insanların yaşadığı Midqard ətrafı sularda yaşayan nəhəng dəniz ilanı Jormunqandın düşmənidir [9]. Torun silah-sursatı olan sehrli Myölnir çəkici, dəmirdən olan Yarnqreyp əlcəkləri istənilən canlını məhv etməyə yetərlidir. Tor sehrli çəkicini idarə etmək üçün dəmir əlcəklərlə istidən qızarmış silahını tuta bilir. Heç vaxt əlindən yerə qoymadığı Myölnir asanlıqla gizlənməsi üçün kiçilir, onu atanda isə bumeranq kimi geri qayıdır. Silahın köməyi ilə Tor demək olar ki, yenilməzdir. Mifdə o, tanrıların ölüm günü olan Raqnarökda dəniz ilanı Jormunqandı canı bahasına məhv edir.

Əgər silah varsa, demək ondan qorunmaq yolları da var. Elrikin tanrı Toru döyüşlərdə xilas edən qalxanına bənzər qoruyucusu var. Üzərində yaşıl-gümüşü və dəyirmi emblemi olan

qalxan Elriki xaosun təsirindən qorumağa qadir yeganə vasitədir. İllər əvvəl, nə vaxtsa tanrı olan nəhəng Mordaq tərəfindən yaradılan qalxan ona magik qüvvə verir. Tanrılar nəhəngi ölümə məhkum edir və onun tale kitabını gizlədirlər. Səmavilər tərəfindən qovulan nəhəng Mordaq Elrikin gəlişini gözləyir və taleyi aldatmaq, yenidən qayıtmaq istəyir. Romandakı əhvalatlar bu yazıların qeyd edildiyi kitabın axtarışı, ölümə məhkum insanların öz taleyinə sahib çıxması ideyası ətrafında baş verir. Tanrılar insanın öz taleyindən xəbər tutması və bundan sonra nə olacağını anlayıb kitabı məhv etmək qərarına gəlir. Xaos Hökmdarı bu kitabı əldə edib başqa dünyada gizlədir. Şahzadə Elriklə bağlı romanlar silsiləsinin biri də məhz bu əlyazmanın axtarışı haqqındadır (“Elric at the End of Time” romanı).

Elrikin Qara qılıncı düşmənin ruhunu özünə çəkən və sahibinə əlavə güc verən dəhşət saçan silahdır. Ona sahib olan Elrik çoxsaylı rəqibləriylə döyüşdən qələbə qazanır və anındaca yenilməz qüvvəyə çevrilir. Qara qılınc ona qələbə gətirdiyi qədər də özündə lənət daşıyır. Qara qılınc öz iradəsinə tabe deyil, çünki Xaos Hökmdarı Ariohun quludur. O, sahibinin əzizini öldürməkdən həzz alır. Məhz bu səbəbdən Elrik öz xalqı arasında “qohum qatili” ləqəbini daşıyır.

Qeyd etdiyimiz kimi Tyurfinq skandinav mifologiyasında tanrı Odinin silahıdır [7], həmçinin bu qılınc motivi digər xalqların, xüsusilə, island mifik dastanının qəhrəmanı Hervörin döyüş qılıncıdır. Mifə görə Tyurfinq qarşısına çıxan istənilən düşməni iki yerə bölür və onun zərbəsini dəf etmək mümkün deyil. Əgər onu qınından çıxardınsa, qana boyanmamış qınına yerləşmir. Martin Puhvel yazır ki, Tyurfinqin lənəti Andvarinin üzüklərə qoyulan lənətiylə müqayisə edilə bilər (Cırtdan Andvarinin sehrli üzüyü – C.D.) [5, s.211]. Diqqət etsək, Elrikin qılıncının adı Firtına gətirən (Stormbringer) mənasını verir, həmçinin bu adla Elrikin özünü də adlandırırlar. Qılıncın adı Elrik obrazı ilə assosiasiya olur. Belə ki, Elrik fırtına gətirən (oxu yaradan!) obrazıyla skandinav mifoloji dünyasının qara qılıncını – Tyurfinqi xatırladır. Başqa sözlə, Elrik obrazına mifin motivləri əlavə olur.

Elrik də qanlı quzğuna dönüb uçur, xarabalığa çevrilmiş ölkələri gəzir. Belə ki, qanlı quzğun təkcə şahzadə Elrik deyil, həm də tanrı Odindir. Məlumdur ki, Odin də sehrbazdır, quzğun görkəmi ala bilir, dünyaları seyr edir. Tanrı Odin quzğunların müşayiəti ilə Dünya ağacında doqquz gün asılı qalır, hikmət əldə edir. Bu məqamı ona görə vurğulayırıq ki, müxtəlif dövrün mətnlərində eyni motivlərin necə bir-birinə qarışdığını və təkrarlandığını göstərə bilək. Bu baxımdan, M. Murkokun roman dünyasında skandinav mifləri ilə paralelləri görmək olur və qeyd etməliyik ki, bu yazıçı üslubunun mühüm xüsusiyyətidir.

**Nəticə.** M. Murkok romanlarında skandinav mifləri ilə ədəbi paralellər mövzusunun öyrənilməsi onu göstərir ki, Maykl Murkok skandinav mifologiyasından yararlanır və mifik dünyanın personajlar aləmini, miflərin mövzu xüsusiyyətlərini fentezi janrına köçürür. Biz bunu roman qəhrəmanlarının təsvirində, davranışlarında, ətrafa olan münasibətlərində görə bilirik. Bu sıraya dünyalararası savaşlar, tanrılar aləmi və Raqnarökun baş verdiyi motivlər də aiddir. Elə bu səbəbdən deyə bilərik ki, skandinav mifik dünyası M. Murkok romanlarının ideya mənbəyi, yaradıcı təxəyyülünün ilham pərisi kimi çıxış edir. Skandinav mifologiyasından gələn

Asqard, Midqard və digər mifoloji dünya modellərini yazıçının Multidünya və ya Paralel Dünyalarında görmək heç də təəccüb doğurmur. Maraqlıdır, bütün bu mifik dünyadan gələn motivlər bir-biriylə sıx əlaqədədir. Təhlilə çəkdiyimiz romanlara əsasən, belə nəticəyə gəlmək olur ki, yazıçı sadalanan mənbələrin hər birinə müraciət edir, onları özünün yaratdığı fentezi dünyasına köçürür.

**Ədəbiyyat**

1. Cəlil F. (2016), Türk və skandinav eposlarının müqayisəli tipologiyası. Filologiya üzrə elmlər doktoru avtoreferatı, 52.
2. Moorcock  M. (1987), The Knight of the Swords. London: Ace, 176.
3. Moorcock M. (2020), Elric of Melnibone. London: Saga Press, 752.
4. New Michael Moorcock novel to combine autobiography and fantasy. The Guardian. https://www.theguardian.com/books/2015/feb/18/michael-moorcock-new-novel-the-whispering-swarm
5. Puhvel M. (1972), The deicidal otherworld weapon in celtic and Germanic mythic tradition. Folklore, Vol.83, No.3, 210-219.
6. Woolf J. (2020), Britain's birds: A treasury of fact, fiction and folklore. National Trust Books, 240.
7. Корсуна А.И. (1975), Старшая Эдда. . https://norroen.info/src/-edda/korsun.html
8. Мелетинский Е.М. (2000). Поэтика Мифа. Москва: Восточная литература, РАН, 407.
9. Мелетинский Е.М. (1990). Мифологический Словарь. Москва: Советская энциклопедия, 634-635.